Azərbaycan Respublikası Prezidentinin
2017-ci il 29 noyabr tarixli 1691 nömrəli Fərmanı ilə
təsdiq edilmişdir

**Əlavə 3**

## Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi[1]

## QAYDASI

### 1. Ümumi müddəalar

1.1. Bu Qayda "Azərbaycan Respublikasında sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsinə dövlət dəstəyi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 15 sentyabr tarixli 1599 nömrəli Fərmanının 5.2.1-ci yarımbəndinin icrası məqsədilə hazırlanmışdır və sahibkarların müvəkkil banklardan manatla aldıqları kreditlərə *Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun (bundan sonra – Fond)* təminat verməsinə dair tələbləri, təminat verilməsi üçün müraciət qaydasını, təminat üzrə ödəniş şərtlərini və təminatla (bundan sonra –zəmanət) bağlı digər məsələləri müəyyən edir. [2]

1.2. *Fond*, müvəkkil banklar və borcalanlar arasında risklərin bölünməsi, habelə bir sahibkar üzrə verilən zəmanətin yuxarı həddinin və verilmiş zəmanətin kredit məbləğinə nisbətinin müəyyənləşdirilməsi mexanizmləri bu Qayda ilə və Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 29 noyabr tarixli 1691 nömrəli Fərmanı ilə təsdiq edilmiş "*Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunda* kredit reytinqi sisteminin və digər risk menecmenti alətlərinin tətbiqi Qaydası" ilə müəyyən edilir. [3]

### 2. Əsas anlayışlar

2.1. Bu Qaydanın məqsədləri üçün aşağıdakı əsas anlayışlardan istifadə edilir:

2.1.1. çərçivə müqaviləsi – zəmanətin və (və ya) faiz subsidiyasının verilməsi ilə bağlı *Fondla* müvəkkil bankın qarşılıqlı münasibətlərini tənzimləyən hüquqi sənəd;

2.1.2. müvəkkil bank – bu Qaydada müəyyən edilən meyarlara cavab verən və *Fondla* çərçivə müqaviləsi bağlayan bank;

2.1.3. borcalan – müvəkkil bankdan kredit alan və ya kredit almaq üçün müraciət edən sahibkar;

2.1.4. sahibkar – əsas məqsədi müstəqil surətdə əmlak istifadəsindən, malların istehsalından və (və ya) satışından, iş görülməsindən və ya xidmət göstərilməsindən mənfəət götürmək olan rezident hüquqi və fiziki şəxslər *(iri, orta, kiçik və mikro sahibkarların meyarları "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müəyyən edilir);*[4]

2.1.5. zəmanət – borcalan kredit üzrə əsas borc öhdəliyini yerinə yetirmədikdə, onun borcunun ödənilməsinə dair *Fondun* müvəkkil bank qarşısında öhdəliyi;

*2.1.6. faiz subsidiyası – bu Qaydaya uyğun olaraq yalnız sahibkarların müvəkkil banklardan manatla aldıqları kreditlərə Fondun zəmanət verdiyi təqdirdə həmin kreditlər üzrə hesablanmış faizlərin bir hissəsinin ödənilməsi üçün dövlətin əvəzsiz verdiyi maliyyə vəsaiti;*[5]

2.1.7. kredit – bağlanmış müqaviləyə uyğun olaraq, qaytarılmaq, müəyyən müddətə (müddətin uzadılması hüququ ilə) və faizlər (komissiya) ödəmək şərti ilə müvəkkil bankın borc verdiyi pul vəsaiti, habelə qarantiya;

2.1.8. kredit xətti – kredit müqaviləsinə uyğun olaraq tam və ya qismən istifadə edilə bilən, faiz dərəcəsi kredit xəttinin yalnız istifadə olunmuş hissəsinə hesablanan və yuxarı həddi müəyyənləşdirilmiş bank krediti;

2.1.9. kredit üzrə güzəşt müddəti – kredit müqaviləsinin şərtlərinə uyğun olaraq, əsas borcun ödənilməsinə möhlət verilmiş müddət;

2.1.10. qeyri-işlək kredit – müqavilə üzrə ödəniş öhdəliyinin icrası 90 gündən artıq gecikdirilmiş kredit;

2.1.11. restrukturizasiya – iqtisadi və (və ya) hüquqi şəraitin dəyişməsi, habelə borclunun maliyyə çətinliyinin yaranması səbəbindən borc öhdəliyinin icrasını təmin etmək məqsədilə müqavilə şərtlərinin dəyişdirilməsi və ya həmin borcun yeni borc öhdəliyi kimi rəsmiləşdirilməsi;

2.1.12. rezident – Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq müəyyən edilən şəxs;

2.1.13. zəmanətin kreditə nisbəti – kreditin verilmə tarixinə zəmanətin məbləğinin kreditin əsas məbləğinə (kredit xətti üçün kredit xəttinin həcminə) nisbəti (örtülmə əmsalı);

*2.1.14. kredit hesabatı – "Kredit büroları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müəyyən edilmiş məlumat;*[6]

2.1.15. müvəkkil banka aidiyyəti olan şəxslər – "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müəyyən edilmiş şəxslər;

2.1.16. illik komissiya – müvəkkil bank tərəfindən zəmanətlər üzrə illik əsasda hesablanan və faizlə ifadə olunan haqq.

## 3. Zəmanətin verilməsi halları

3.1. Zəmanət qeyri-neft sektorunda fəaliyyət göstərən və Azərbaycan Respublikası ərazisində sahibkarlıq fəaliyyətinin maliyyələşdirilməsi məqsədilə müvəkkil banka kredit sifarişi ilə müraciət edən sahibkarın öhdəlikləri üzrə verilir.

3.2. Zəmanət aşağıdakı hallarda verilmir:

3.2.1. borcalan zəmanət üçün müraciət edən müvəkkil banka aidiyyəti şəxs olduqda;

3.2.2. kredit *hesabatına* əsasən, borcalanın kredit sifarişi tarixinə və ya zəmanətin verilməsi tarixinə kredit öhdəlikləri üzrə 30 (otuz) gündən artıq (borcalanın zamin durduğu öhdəliklər istisna olmaqla) gecikməsi olduqda və ya son bir il ərzində qeyri-işlək kredit statusu almış kredit borcu olduqda;[7]

3.2.3. kredit *hesabatına* əsasən, borcalan hüquqi şəxsin nizamnamə kapitalında 25% və daha artıq payı olan fiziki və (və ya) hüquqi şəxslərin borcalanın kredit sifarişi tarixinə və ya zəmanətin verilməsi tarixinə kredit öhdəlikləri üzrə 30 (otuz) gündən

artıq (onların zamin durduqları öhdəliklər istisna olmaqla) gecikməsi olduqda və ya son bir il ərzində qeyri-işlək kredit statusu almış kredit borcları olduqda;

3.2.4. kredit *hesabatına* əsasən, borcalanın kredit öhdəliyi üzrə zamin qismində çıxış edən fiziki və (və ya) hüquqi şəxslərin borcalanın kredit sifarişi tarixinə və ya zəmanətin verilməsi tarixinə kredit öhdəlikləri üzrə 30 (otuz) gündən artıq (onların zamin durduqları öhdəliklər istisna olmaqla) gecikməsi olduqda və ya son bir il ərzində qeyri-işlək kredit statusu almış kredit borcları olduqda;

*3.2.5. borcalanın bank hesabları üzərində məhkəmənin qərarı ilə, habelə qanunla müəyyənləşdirilmiş və ya bankla borcalan arasında müqavilədə nəzərdə tutulmuş hallarda pul vəsaitinin silinməsinə dair müvafiq sərəncam olduqda;*[8]

3.2.6. zəmanət verilməsi üçün müraciət olunan kredit borcalanın digər kredit öhdəliklərinin yenidən maliyyələşdirilməsi (mövcud borc öhdəliyinin yeni borc öhdəliyi ilə əvəzləşdirilərək rəsmiləşdirilməsi) üçün alındıqda;

3.2.7. borcalanın nizamnamə kapitalında dövlətin iştirak payı 50%-dən çox olduqda;

3.2.8. borcalan mərc oyunları fəaliyyəti ilə məşğul olan sahibkar olduqda.

3.3. Sığorta şirkətlərinin, kredit təşkilatlarının, investisiya şirkətlərinin, investisiya fondlarının, investisiya fondları idarəçilərinin, qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslərin, lombardların, lizinq şirkətlərinin, poçt rabitəsinin milli operatorunun, valyuta mübadiləsi fəaliyyətinə lisenziya almış şəxslərin, habelə digər maliyyə institutlarının kredit sifarişləri üzrə zəmanət verilmir.

## 4. Zəmanət verilməsi şərtləri

4.1. Zəmanət veriləcək kreditlər aşağıdakı tələblərə cavab verməlidir:

4.1.1. kreditin məbləği 30 000 (otuz min) manatdan az olmamalı;

*4.1.2. bir borcalanın bütün müvəkkil banklar üzrə zəmanət verilən cəmi kreditlərinin məbləği 5 000 000 (beş milyon) manatdan, bir-biri ilə əlaqədar borcalanlar qrupunun bütün müvəkkil banklar üzrə zəmanət verilən cəmi kreditlərinin məbləği isə 10 000 000 (on milyon) manatdan çox olmamalı;*[9]

4.1.3. kreditin müddəti 7 (yeddi) ildən çox olmamalı;

4.1.4. kredit xəttinin müddəti 12 (on iki) aydan artıq olmamalı;

4.1.5. kredit üzrə güzəşt müddəti 2 (iki) ildən artıq olmamalı;

4.1.6. dövriyyə vəsaitlərinin maliyyələşdirilməsi məqsədilə alınmış kreditlərin müddəti 2 (iki) ildən artıq olmamalı.

4.2. Zəmanət aşağıdakı tələblərə cavab verməlidir:

4.2.1. bir borcalan üzrə bir zəmanətin aşağı həddi 15 000 (on beş min) manat, bütün zəmanətlərin yuxarı həddi isə *3 000 000 (üç milyon)* manat məbləğində olmalı;[10]

4.2.2. bir-biri ilə əlaqədar borcalanlar qrupu üzrə veriləcək zəmanətlərin məbləği *6 000 000 (altı milyon)* manatdan çox olmamalı;[11]

4.2.3. zəmanət kreditin yalnız əsas borcu üzrə verilməli;

4.2.4. bir kredit üzrə zəmanətin kreditə nisbəti 15%-dən az, 75%-dən çox olmamalı.

4.3. Bu Qaydanın məqsədləri üçün borcalanlar aşağıdakı hallarda bir-biri ilə əlaqədar hesab olunurlar:

4.3.1. borcalanlardan biri bankın (və ya digər müvəkkil bankların) digər borcalanı üzərində mühüm təsirə malik olduqda;

4.3.2. hər hansı borcalanın öhdəlikləri üzrə birgə və ya subsidiar məsuliyyət daşıyan şəxs bankın (və ya digər müvəkkil bankların) borcalanı olduqda;

4.3.3. bankın (və ya digər müvəkkil bankların) borcalanı olan iki və ya daha çox şəxsin öhdəlikləri üzrə eyni bir şəxs (borcalan olub-olmamasından asılı olmayaraq) birgə və ya subsidiar məsuliyyət daşıdıqda;

4.3.4. iki və ya daha çox borcalan kredit öhdəliklərinin icrası üçün eyni təminat təqdim etdikdə.

4.4. Aşağıdakı hallarda bir şəxs digər şəxsin üzərində mühüm təsirə malik hesab olunur:

4.4.1. o, hüquqi şəxsin kapitalında 10% və ya daha çox iştirak payına malik olduqda və ya hüquqi şəxsin idarəetmə orqanlarının üzvü olduqda;

4.4.2. o, hüquqi şəxsin öhdəlikləri üzrə birgə və ya subsidiar məsuliyyət daşıyan təsisçisi (iştirakçısı) olduqda.

4.5. Zəmanət verilmiş kreditin restrukturizasiyası zamanı zəmanətin məbləği restrukturizasiya tarixinə həmin kredit üzrə zəmanət məbləğinin qalığından artıq ola bilməz.

4.6. Zəmanət verilmiş kredit *Fondun Himayəçilik Şurasının* müəyyən etdiyi qaydada və yalnız bir dəfə restrukturizasiya edilə bilər.

4.7. Yeni fəaliyyətə başlayan sahibkarların kreditləri üzrə zəmanət maliyyələşdirilməli olan layihənin ümumi dəyərinin minimum 25%-i həcmində vəsaiti borcalanın müvəkkil bankdakı hesaba mədaxil etməsi və ya borcalanın layihə üzrə xərclədiyi vəsaitlərin layihənin ümumi məbləğinin minimum 25%-ini təşkil etməsi (ödəniş sənədləri ilə təsdiq olunduqda) halında verilir.

4.8. Zəmanət verilmiş kredit vəsaitlərindən borcalan yalnız təyinatına uyğun və nağdsız qaydada istifadə etməlidir.

4.9. Zəmanət verilməsi üçün müraciət tarixinə həmin müvəkkil bankda olmayan hər hansı digər öhdəliklərin təminatı qismində çıxış edən girov (ipoteka) predmeti zəmanət veriləcək kredit üzrə təminat qismində qəbul edilə bilməz. Müvəkkil bankda digər öhdəliyin təminatı olan girov (ipoteka) predmeti zəmanət verilmiş kreditin təminatı kimi yalnız *Fondun* həmin girova (ipotekaya) dair tələblərin ödənilməsində üstünlük hüququ olduqda nəzərə alınır.

## 5. Zəmanət verilməsi

5.1. *Fond* müvəkkil bankla bağlanmış çərçivə müqaviləsi əsasında zəmanət verir. Çərçivə müqaviləsinin şərtlərini və formasını, bu Qaydanın tələbləri nəzərə alınmaqla, *Fondun İdarə Heyəti* təsdiq edir. Çərçivə müqaviləsində ən azı aşağıdakı şərtlər öz əksini tapmalıdır:[12]

5.1.1. müvəkkil bank və faiz subsidiyası alan sahibkar arasında bağlanmış kredit müqaviləsində zəmanət ləğv ediləcəyi təqdirdə, ~~bankın faiz subsidiyası həcmində~~

~~ödənişləri həmin borcalana ödəmək və ya~~ faiz subsidiyası həcmində kredit faizlərini aşağı salmaq öhdəliyinin təsbit olunması;[13]

*5.1.2. zəmanət üzrə öhdəliyin icra edilməsi üçün borcalana qarşı tələb hüququnu Fondun əldə etməsi.*[14]

5.2. Zəmanət aşağıdakı qaydada verilir:

5.2.1. borcalan *zəmanət tələb olunan* kredit sifarişi ilə müvəkkil banka *"Elektron hökumət" portalında olan "Elektron ipoteka və kredit zəmanət" sistemi (bundan sonra – elektron sistem) vasitəsilə* müraciət edir;[15]

5.2.2. müvəkkil bank borcalanın kredit sifarişinin bu Qaydanın 4.1-ci bəndində göstərilən tələblərə uyğunluğunu yoxlayır, sifariş üzrə maliyyə kredit təhlili aparır və bunların əsasında müvəkkil bankın səlahiyyətli orqanı müvafiq qərar qəbul edir; *Bu qərar müvəkkil bank tərəfindən elektron sistemdə yerləşdirilir;*[16]

5.2.3. müvəkkil bankın səlahiyyətli orqanının qərarı müsbət olduqda, müvəkkil bank zəmanət üçün *Fonda elektron sistem vasitəsilə* müraciət edir;[17]

*5.2.4. müvəkkil bank zəmanət üçün müraciət etdikdə, müvafiq sənədləri elektron sistem vasitəsilə Fonda təqdim edir. Hər hansı sənəd üzrə məlumatların elektron sistem vasitəsilə alınması mümkün olmadıqda, borcalan həmin sənədi müvəkkil banka təqdim etməlidir. Müvəkkil bank təqdim olunmuş sənədin surətini elektron sistemdə həmin gün yerləşdirməlidir. Təqdim olunan sənədlər aşağıdakılardır:*[18]

1. kreditin və zəmanətin verilməsinə dair qeydlər, habelə bankın daxili kredit reytinqi modelinin nəticəsi göstərilməklə müvəkkil bankın səlahiyyətli orqanının qərarı;

2. borcalanın maliyyə vəziyyətini əks etdirən sənədlər və məlumatlar;

3. borcalanın müvəkkil banka təqdim etdiyi kredit sifarişi ərizəsi və kredit *hesabatı;*[19]

4. borcalanın təsis sənədləri (fiziki şəxs olduqda – şəxsiyyətini təsdiq edən sənəd) və VÖEN-i;

5. zəmanət verilməsi üçün müraciət olunan tarixə borcalanın dövlət büdcəsinə və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fonduna ödənilməmiş borcu olmadığını və ya müvəkkil bankdakı hesabı üzrə müvafiq dövlət orqanlarının sərəncamı olmadığını təsdiq edən sənədlər;

6. borcalanın son hesabat ili üzrə vergi bəyannaməsi (və ya bəyannamələri), şəxsi hesab vərəqəsindən çıxarış, vergi borcu barəsində arayış (yeni fəaliyyətə başlayanlar istisna olmaqla), ƏDV ödəyicisi olduqda son 6 ay üzrə ƏDV bəyannamələri;

7. borcalan və zamin hüquqi şəxs olduqda, onların nizamnamə kapitalında 25%-dən çox iştirak payı olan fiziki və (və ya) hüquqi şəxslər barədə kredit *hesabatları*;

8. borcalanın nizamnamə kapitalında 25%-dən çox iştirak payı olan fiziki şəxslərin, habelə kredit üzrə təminat vermiş fiziki şəxslərin (zaminlərin, girov (ipoteka) qoyan və s.) şəxsiyyətini təsdiq edən sənədlər;

9. borcalanın hüquqi şəxs olan qanuni təmsilçisi, nizamnamə kapitalında 25%-dən çox iştirak payı olan hüquqi şəxslər, həmçinin kredit üzrə təminat vermiş hüquqi şəxslər barədə (zaminlərin, girov (ipoteka) qoyan və s.) dövlət reyestrindən çıxarış;

10. təminat qismində çıxış edən girov (ipoteka) predmeti olan əmlaka mülkiyyət hüququnu təsdiq edən sənəd;

11. girov (ipoteka) predmetini qiymətləndirmə aktı;

12. borcalanın müvəkkil banka aidiyyəti olan şəxs olmadığını təsdiqləyən və müvəkkil bankın səlahiyyətli nümayəndəsinin imzaladığı sənəd;

13. borcalanın ona dair məlumatların *Fonda* ötürülməsinə dair razılığını təsdiq edən sənəd.

~~5.2.5. müvəkkil bank 200 000 (iki yüz min) manat və ondan aşağı məbləğdə olan zəmanət üçün *Fonda* müraciət etdikdə, bu Qaydanın 5.2.4-cü yarımbəndinin 2-ci və 6-cı abzasları istisna olmaqla digər abzaslarında nəzərdə tutulmuş sənədləri təqdim edir.~~ [20]

5.3. Bu Qaydanın 5.2.4-cü yarımbəndinin 2-ci abzasında nəzərdə tutulan təsdiqedici sənədlərin və məlumatların siyahısını *Fondun İdarə Heyəti* müəyyən edir. [21]

*5.4. Fond zəmanətin verilməsi üzrə müvəkkil bankın müraciəti ilə bağlı 10 (on) iş günü müddətində qərar qəbul edir və bu qərar elektron sistemdə yerləşdirilir.*[22]

5.5. *Fond* təqdim olunan sənədlərdə səhv və ya çatışmazlıq aşkar etdikdə, həmin səhv və ya çatışmazlıq haqqında 3 (üç) iş günü müddətində müvəkkil banka *elektron sistem vasitəsilə* bildiriş göndərir və bu səhvi və ya çatışmazlığı aradan qaldırmağı təklif edir.

5.6. Müvəkkil bank aşkar edilmiş səhvi və ya çatışmazlığı 15 (on beş) iş günü müddətində aradan qaldırmadıqda *və ya* bu Qaydada müəyyən edilən digər hallarda *Fond* zəmanəti verməkdən imtina edir və imtinanın əsaslarını göstərməklə, 3 (üç) iş günü müddətində müvəkkil banka bu barədə *elektron sistem vasitəsilə* bildiriş göndərir.[23]

*5.7. Fondun qərarı müsbət olduqda, 3 (üç) iş günü müddətində müvəkkil banka zəmanətlə bağlı yazılı məlumat təqdim edilir və bu qərar elektron sistemdə yerləşdirilir. Zəmanətlə bağlı məlumat müvəkkil bank və müştəri arasında bağlanan kredit müqaviləsində qeyd olunur və zəmanət kredit müqaviləsinin imzalandığı tarixdən qüvvəyə minir.* Kredit müqaviləsi 30 (otuz) təqvim günü müddətində imzalanmadığı halda zəmanət etibarsız sayılır. [24]

5.8. Müvəkkil bankla borcalan arasında kredit müqaviləsi imzalandıqdan sonra, müvafiq kredit müqaviləsinin təsdiq olunmuş surəti və ya bir nüsxəsi (ödəniş cədvəli daxil olmaqla) və girov (ipoteka) müqaviləsinin təsdiq olunmuş surəti və ya bir nüsxəsi (olduqda) müvəkkil bank tərəfindən 3 (üç) iş günü müddətində *Fonda* təqdim edilir *və elektron sistemdə yerləşdirilir*. [25]

5.9. Zəmanət verilməsi üçün *Fonda* təqdim edilmiş sənədlər geri qaytarılmır.

## 6. Müvəkkil bankın müəyyən edilməsi meyarları

6.1. Müvəkkil banklar aşağıdakı meyarlara uyğun olmalıdır:

6.1.1. Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının (bundan sonra – Palata) müəyyən etdiyi minimum məcmu kapital, kapital adekvatlığı və likvidlik əmsalları üzrə prudensial tələblərə cavab verməli;

6.1.2. son 2 ildə sahibkarlıq məqsədilə verilmiş kredit portfelində (2016-cı il 1 yanvar tarixindən əvvəl verilib sonradan restrukturizasiya edilmiş kreditlər istisna

olmaqla) qeyri-işlək kreditlərinin (balansdan silinmiş kreditlərin qalıqları nəzərə alınmaqla) payı 10%-dən yuxarı olmamalı;

6.1.3. sahibkarların kreditləşdirilməsi üzrə müvafiq daxili qayda və prosedurlar olmalı;

6.1.4. vaxtı keçmiş kreditlərlə iş üzrə müvafiq daxili qayda və prosedurlar olmalı;

6.1.5. bankın kredit reytinqi sistemi (model, qayda, prosedur və s.) olmalı.

6.2. Palata müvəkkil bankların maliyyə-statistik göstəriciləri barədə müraciət daxil olduğu tarixdən 10 (on) iş günü müddətində *Fondun İdarə Heyətinə* müvafiq məlumat təqdim edir.

6.3. İl ərzində Palata *Fondla* çərçivə müqaviləsi bağlamış müvəkkil banklar tərəfindən bu Qaydanın 6.1.1-ci yarımbəndinin tələblərinin pozulması barədə məlumatı mütəmadi olaraq *Fondun İdarə Heyətinə* təqdim edir.

6.4. Bu Qaydanın 6.1.1-ci yarımbəndinin tələbləri üzrə kənarlaşmaların qısa müddət ərzində bərpa olunacağı qənaətinə gəldikdə, *Fondun İdarə Heyəti* bankla çərçivə müqaviləsinin bağlanması barədə qərar qəbul edə bilər.

## 7. Müvvəkil bankların üzvlük haqları

7.1. Müvəkkil banklar *Fondla* çərçivə müqaviləsini imzaladıqdan sonra 10 (on) iş günü müddətində *Fondun* Azərbaycan Respublikası Mərkəzi Bankında olan hesabına birdəfəlik üzvlük haqqı ödəyirlər. Sistem əhəmiyyətli banklar üçün birdəfəlik üzvlük haqqı 75 000 (yetmiş beş min) manat, digər banklar üçün 40 000 (qırx min) manat məbləğində müəyyən olunur. Üzvlük haqqı bu Qaydalarda müəyyən edilmiş müddət ərzində ödənilmədikdə çərçivə müqaviləsi qüvvəyə minmir.

7.2. Üzvlük haqqını ödəyən müvəkkil banklar birləşmə və ya qoşulma şəklində yenidən təşkil olunduqda onların təkrar üzvlük haqqı ödəməsi tələb olunmur.

7.3. *Fonda* ödənilmiş üzvlük haqları geri qaytarılmır.

## 8. Müvəkkil bankların xidmət haqları

8.1. Müvəkkil bank zəmanət verilməsi üçün etdiyi hər bir müraciətə baxılmağa görə *Fonda* birdəfəlik xidmət haqqı və zəmanət verilməsinə görə komissiya (birdəfəlik və illik) ödəyir.

*8.2. Hər bir müraciət üçün müvəkkil bank tərəfindən zəmanət məbləğinin 0.1%-i (maksimum 50 (əlli) manat) həcmində xidmət haqqı ödənilir.*[26]

8.3. Birdəfəlik komissiya zəmanət qüvvəyə mindiyi tarixə *Fondun Himayəçilik Şurasının* təsdiq etdiyi tarifə uyğun hesablanır. Birdəfəlik komissiya verilən zəmanət məbləğinin 0,5%-dən çox ola bilməz.

8.4. İllik komissiyanın həcmi Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 29 noyabr tarixli 1691 nömrəli Fərmanı ilə təsdiq edilmiş "*Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunda* kredit reytinqi sisteminin və digər risk menecmenti alətlərinin tətbiqi Qaydası"na uyğun olaraq müəyyən edilir. İllik komissiya zəmanətin qüvvəyə mindiyi tarixdən hesablanır.

*8.5. Birdəfəlik komissiya zəmanətin qüvvəyə mindiyi tarixə olan məbləği üzrə hesablanır. İllik komissiya isə zəmanətin qüvvədə olduğu müddətdə gündəlik əsasda zəmanətin qalıq məbləğinə hesablanır və aylıq qaydada ödənilir. Birdəfəlik və illik komissiyaların, habelə xidmət haqqının ödənilməsi qaydası müvəkkil bank və Fond arasında bağlanmış çərçivə müqaviləsi ilə tənzimlənir.*[27]

*8.6. Müvəkkil bank hər ay üzrə birdəfəlik və illik komissiya, habelə xidmət haqqı barədə hesabatını həmin aydan sonrakı 5 (beş) iş günü müddətində elektron sistem vasitəsilə Fonda təqdim edir.* Hesabat təqdim edildikdən sonra növbəti 3 (üç) iş günü müddətində müvafiq ödənişlər *Fondun* Azərbaycan Respublikası Mərkəzi Bankında olan hesabına köçürülür.[28]

~~8.7. Bu Qaydanın 8.6-cı bəndində qeyd olunmuş hesabatın formasını və təqdim edilmə qaydasını *Fondun Himayəçilik Şurası* müəyyən edir.~~[29]

## 9. Zəmanət üzrə öhdəliyin icrası

9.1. Zəmanət verilmiş kredit üzrə gecikmə müddəti 120 (yüz iyirmi) günü (kreditə çevrilmiş qarantiyalar üzrə 30 (otuz) günü) keçdikdə, müvəkkil bankın *Fonda* qarşı tələb hüququ yaranır. Tələb hüququ yarandığı gündən etibarən 150 (yüz əlli) gün müddətində qüvvədə olur. Bu müddətdə müvəkkil bank *Fonda* ödəniş tələbi irəli sürmədikdə, zəmanət qüvvəsini itirir.

9.2. Müvəkkil bank verilmiş zəmanət üzrə ödəniş aparılması üçün *Fonda* yazılı müraciət edir. Müraciətə aşağıdakı məlumat və sənədlər əlavə olunmalıdır:

9.2.1. borcalanın tam adı;

9.2.2. *Fonda* qarşı tələbin məbləği;

9.2.3. zəmanəti təsdiq edən sənədin, zəmanət verilmiş kredit üzrə borcalanla bağlanmış kredit müqaviləsinin və bu müqavilə ilə əlaqəli digər müqavilələrin surətləri;

9.2.4. zəmanət verildiyi tarixdən zəmanət üzrə ödəniş aparılması üçün müraciət etdiyi tarixədək borcalanın müvafiq cari və (və ya) ssuda hesabından çıxarış, o cümlədən müvəkkil banklarda yerləşdirilmiş vəsaitləri barədə məlumat;

9.2.5. borcalana, o cümlədən zaminlərə, girov qoyanlara və digər təminat verənlərə göndərilmiş bildirişlər və (və ya) pretenziya məktublarının və olduğu təqdirdə, bu məktublara cavabların, habelə borcalana qarşı məhkəmədə iddia qaldırılmasını təsdiq edən sənədlərin surətləri.

9.3. Müraciəti müvəkkil bankın səlahiyyətli şəxsi imzalayır və möhürlə təsdiq edir.

9.4. Zəmanət üzrə ödənişin məbləği kredit üzrə əsas borcun icra edilməmiş hissəsinə münasibətdə qüvvədə olan zəmanətin kreditə nisbəti həcmində hesablanır.

*9.5. Fond, bu Qaydanın 9-cu və 10-cu hissələrində göstərilənləri nəzərə almaqla, tələbin daxil olduğu tarixdən etibarən 5 (beş) iş günündən gec olmayaraq zəmanətin ödənilməsi ilə bağlı qərar verir və müvəkkil banka bu barədə yazılı bildiriş göndərir. Bildiriş əsasında müvəkkil bank 3 (üç) iş günü müddətində borcalana münasibətdə zəmanət verilmiş kredit üzrə tələb hüquqlarını tam həcmdə tələbin güzəşti müqaviləsi və ya adlı qiymətli kağız üzrə indossament yolu ilə Fonda güzəşt edir.*[30]

9.6. *Tələb hüquqları Fonda güzəşt edildikdən sonra Fond 3 (üç) iş günü müddətində zəmanət üzrə ödənişi müvəkkil bankın hesabına köçürür.* Zəmanət üzrə ödəniş birdəfəlik həyata keçirilir və hissə-hissə ödənilməsinə yol verilmir. [31]

9.7. *Fond*, müvəkkil bank tərəfindən zəmanət üzrə ödəniş aparılması üçün təqdim olunan sənədlərdə səhv və ya çatışmazlıq aşkar etdikdə, həmin səhv və ya çatışmazlıq haqqında 3 (üç) iş günü müddətində müvəkkil banka yazılı bildiriş göndərir və bu səhvi və ya çatışmazlığı aradan qaldırmağı təklif edir.

9.8. Müvəkkil bank aşkar edilmiş səhvi və ya çatışmazlığı 15 (on beş) iş günü müddətində aradan qaldırmadıqda və (və ya) müvəkkil bankın zəmanət üzrə ödəniş aparılması tələbi bu Qaydanın və müvəkkil bankla *Fond* arasında bağlanmış çərçivə müqaviləsinin şərtlərinə uyğun olmadıqda, *Fond* ödəniş aparılmasından imtina edir və imtinanın əsaslarını göstərməklə, 3 (üç) iş günü müddətində müvəkkil banka bu barədə yazılı bildiriş göndərir.

9.9. *Fondla* müvəkkil bank arasında bağlanmış çərçivə müqaviləsi *qanunla müəyyən edilmiş hallarda* ləğv edildikdə, *Fond* tərəfindən ödəniş edilmiş kreditlər üzrə ~~müvəkkil banka~~ daxil olan vəsait *Fondun* tələbləri bitənədək tam olaraq *Fondun* tələblərinin ödənilməsinə yönəldilir. [32]

9.10. *Fondun* bu Qaydanın 9.9-cu bəndində göstərilən tələbləri tam icra edildikdə, *Fond* 3 (üç) iş günü müddətində müvəkkil banka bu barədə məlumat verir və borcalana münasibətdə *zəmanət verilmiş kredit üzrə tələb hüququnu müvəkkil banka geri qaytarır*. [33]

## 10. Zəmanətin dayandırılması və ləğv edilməsi

10.1. Bir müvəkkil banka zəmanətlər üzrə edilmiş ödənişlərin (zəmanətə görə ödəniş edilmiş kreditlər üzrə *Fonda daxil olan vəsaitlər* çıxılmaqla) və müvəkkil bankın cari ödəniş tələbinin ümumi məbləği *Fondun* həmin müvəkkil banka verdiyi bütün zəmanətlərin qalıq məbləğlərinin 7%-ini keçdikdə, müvəkkil banka verilmiş zəmanətlər üzrə ödənişlər dayandırılır. Bu zaman son 4 ayda verilmiş zəmanətlər bütün zəmanətlərin qalıq məbləğlərinin hesablanmasında nəzərə alınmır. [34]

10.2. Bir müvəkkil banka zəmanətlər üzrə edilmiş ödənişlərin (zəmanətə görə ödəniş edilmiş kreditlər üzrə *Fonda daxil olan vəsaitlər* çıxılmaqla) ümumi məbləği *Fondun* həmin müvəkkil banka verdiyi bütün zəmanətlərin qalıq məbləğlərinin 7%-indən aşağı düşdükdə, *Fond* ödənişlərin icrasını bərpa edir.

10.3. Aşağıdakı hallarda müvəkkil banka yeni zəmanət verilməsi dayandırılır:

10.3.1. bu Qaydanın 10.1-ci bəndində müəyyən olunmuş hal baş verdikdə;

10.3.2. bir müvəkkil bank üzrə zəmanətlərlə təmin edilmiş kredit portfelində *Fond* tərəfindən zəmanətə görə ödəniş edilmiş kreditlərin qalıq məbləği də daxil olmaqla qeyri-işlək kreditlərin və restrukturizasiya olunmuş kreditlərin həcmi 10%-dən çox olduqda. Bu halda son 4 ayda verilmiş kreditlər portfelin hesablanmasında nəzərə alınmır;

10.3.3. bu Qaydanın 6.1.1-ci yarımbəndində müəyyən edilən tələb pozulduqda;

10.3.4. zəmanətin verilməsi üçün müraciət zamanı müvəkkil bankın bilərəkdən *Fonda* yanlış məlumat təqdim etməsi halı son 12 (on iki) ayda 3 dəfədən artıq təkrarlandıqda.

10.4. *Fond* bu Qaydanın 10.3.3-cü yarımbəndində nəzərdə tutulmuş şərtlərə əməl edilməsi vəziyyətinin yoxlanılması üçün ən azı ildə bir dəfə Palatadan məlumat alır.

*10.5. Müvəkkil banka yeni zəmanət verilməsi bu Qaydanın 10.3.1–10.3.3-cü yarımbəndlərində nəzərdə tutulmuş hallar aradan qalxdıqda, 10.3.4-cü yarımbənddə qeyd edilən halın baş verməsindən isə 3 (üç) ay keçdikdə yenidən bərpa olunur.*[35]

10.6. Aşağıdakı hallarda kredit üzrə verilmiş zəmanət ləğv edilir:

*10.6.1. müvəkkil bankın həmin kredit üzrə zəmanətin ləğv edilməsi barədə elektron sistem vasitəsilə müraciəti olduqda və ya zəmanət verilməsinə görə ödəmə vaxtı çatmış xidmət haqları və komissiyaların ödənişi 1 (bir) aydan çox gecikdirildikdə.* Bu zaman müvəkkil bank *Fonda*, həmin kredit üzrə qalıq zəmanət məbləğinin 0.2%-i (minimum 100 (yüz) manat) həcmində birdəfəlik cərimə ödəyir;[36]

10.6.2. zəmanətlə təmin olunmuş kreditlər üzrə tələb hüquqları *Fondun* yazılı razılığı olmadan müvəkkil bank tərəfindən üçüncü tərəfə ötürüldükdə;

10.6.3. borcalanla bağlanmış kredit, girov və digər təminat müqavilələrinin şərtləri *Fondun müəyyən etdiyi formaya uyğun olmadıqda və ya Fondun* yazılı razılığı olmadan dəyişdirildikdə;[37]

10.6.4. zəmanət verilmiş kredit məbləğini müvəkkil bank *kredit müqaviləsinə uyğun olaraq* təyinatı üzrə köçürmədikdə;[38]

10.6.5. *Fondun* sahibkarlıq subyektlərində monitorinqi zamanı müvəkkil bankın zəmanət verilməsi üçün müraciət edərkən bilərəkdən yanlış məlumat təqdim etdiyi *və ya zəmanət verilmiş kreditin təyinatı üzrə istifadə edilməməsinə şərait yaratdığı aşkarlandıqda və bu, məhkəmə qərarı ilə təsdiq edildikdə.*[39]

*10.7. Müvəkkil bankla bağlanmış çərçivə müqaviləsi həmin müqavilədə nəzərdə tutulmuş hallarda yalnız qarşılıqlı öhdəliklər tam icra edildikdən sonra ləğv edilə bilər.*[40]

10.8. Çərçivə müqaviləsi ləğv edildiyi tarixdən 2 (iki) il ərzində *Fond* həmin bankla yeni çərçivə müqaviləsi bağlaya bilməz.

10.9. Bu Qaydanın 10.3.1–10.3.4-cü yarımbəndlərində nəzərdə tutulan hallar baş verdikdə, müvəkkil bank ~~rüblük əsaslarla~~ zəmanətlər üzrə haqların ödənişini çərçivə müqaviləsi qüvvədə olduğu müddətdə davam etdirir.[41]

~~10.10. Zəmanətlə təmin olunmuş kredit portfelində faiz subsidiyası alan borcalan olduğu təqdirdə, bu Qaydanın 5.1-ci bəndinin tələbi nəzərə alınmaqla, çərçivə müqaviləsi ləğv oluna bilər.~~[42]

## 11. Müvəkkil banklar üzrə limitin müəyyən edilməsi

*11.1. Fondun Himayəçilik Şurası hər bir müvəkkil bank üzrə zəmanətin maksimum limitinin (bundan sonra – limit) müəyyənləşdirilməsi qaydasını təsdiq edir.*[43]

11.2. Müvəkkil banklar hər il üçün limitlə bağlı *müraciətlərini Fonda* onun *İdarə Heyətinin* müəyyənləşdirdiyi qaydada təqdim edirlər.[44]

*11.3. Fondun İdarə Heyəti hər bir müvəkkil bank üzrə limiti aşağıdakılar nəzərə alınmaqla Fondun Himayəçilik Şurası tərəfindən təsdiq olunmuş daxili təsnifləşdirmə modelinə əsasən müəyyən edir:*[45]

11.3.1. hər bir müvəkkil bank üçün ən azı onun aktivlərinin keyfiyyəti, kapital adekvatlığı, likvidliyi, satış şəbəkəsi, sahibkarlara verilmiş kreditlərin ümumi kredit portfelindəki payı üzrə göstəricilər müəyyən edilir;

11.3.2. müvəkkil bankın bu Qaydanın 11.3.1-ci yarımbəndində nəzərdə tutulmuş hər bir göstəricisi 1–5 intervalında qiymətləndirilir;

11.3.3. bu Qaydanın 11.3.2-ci yarımbəndində nəzərdə tutulmuş qiymətlərin hər bir göstərici üzrə müəyyən edilmiş xüsusi çəkilərlə hasili əsasında yekun qiymətlər hesablanır;

11.3.4. hər bir bankın bu Qaydanın 11.3.3-cü yarımbəndində nəzərdə tutulmuş yekun qiymətləri cəmlənir və bal müəyyən olunur;

11.3.5. müvəkkil banklar üzrə fərdi ballar cəmlənir;

11.3.6. *Fond* tərəfindən təqvim ili üzrə ayrılacaq zəmanət məbləği üzrə müvəkkil bankın limiti həmin bankın fərdi balının bu Qaydanın 11.3.5-ci yarımbəndinə əsasən hesablanan cəmdəki payına mütənasib olaraq müəyyən edilir.

11.4. Bu Qaydanın 11.3-cü bəndinə əsasən müəyyən edilmiş modelə bu Qaydanın qüvvəyə mindiyi tarixdən ən azı 2 (iki) il sonra hər bir müvəkkil bank üzrə *Fondun* riskləri nəzərə alınmaqla yenidən baxılır.

11.5. Müəyyən edilmiş limitin məbləği müvəkkil bankın müraciətindəki zəmanət məbləğindən yüksəkdirsə, bu halda limit məbləğinin artıq olan hissəsi digər müvəkkil banklar arasında fərdi ballara uyğun olaraq bölüşdürülür. Bir müvəkkil bank üzrə müəyyən olunmuş limit həmin il üzrə müvəkkil banklara veriləcək cəmi zəmanət limitinin 25%-indən yüksək ola bilməz.

11.6. *Fond* müvəkkil bank üzrə limitin ayrılmasına dair müvafiq qərar qəbul etdikdən sonra 2 (iki) iş günü müddətində müvəkkil banka yazılı məlumat verir.

11.7. *Fond* zəmanət limitlərinin istifadəsinə nəzarət edir. *Fondun İdarə Heyəti* tərəfindən hər bir il üzrə müəyyən edilmiş tarixədək banklar tərəfindən zəmanət limitinin azaldılması ilə bağlı *Fonda* müraciət edildikdə, cari il üçün limit azaldılır və limit məbləğinin istifadə olunmamış hissəsi digər banklar arasında fərdi ballara uyğun olaraq bölüşdürülür. Bu zaman Qaydanın 11.10-cu bəndinə uyğun olaraq, müvəkkil bank statusu almış, lakin limit ayrılmamış banklara üstünlük verilir.

11.8. Təqvim ilinin sonunadək ilkin və ya azaldılmış zəmanət limitindən istifadə 90%-dən az olduqda, müvəkkil banka aşağıdakılar tətbiq edilir:

11.8.1. müvəkkil bank ilin birinci yarısında limitin azaldılmasına dair müraciət etdikdə, azaldılmış limitin istifadə olunmamış hissəsinin cari ilin azaldılmış limitinə nisbətində növbəti il üçün limit azaldılır və cari ilin azaldılmış limitinin istifadə olunmamış hissəsinə cərimə tətbiq edilir;

11.8.2. müvəkkil bank ilin birinci yarısında limitin azaldılmasına dair müraciət etmədikdə, cari ilin limitinin istifadə olunmamış hissəsinin cari ilin limitinə nisbətində növbəti il üçün limit azaldılır və cari ilin limitinin istifadə olunmamış hissəsinə cərimə tətbiq edilir.

11.9. Bu Qaydanın 11.8-ci bəndində göstərilən cərimə faizini və həmin bənddən irəli gələn digər məsələləri *Fondun Himayəçilik Şurası* müəyyən edir. *Fond* müvəkkil bankın limitin azaldılması barədə *Fondun İdarə Heyəti* tərəfindən cari il üzrə müəyyən edilmiş tarixdən sonra etdiyi müraciətə baxmır. Müvəkkil bank limitin azaldılması üçün ildə yalnız bir dəfə müraciət edə bilər.

11.10. Limitlər ayrıldıqdan sonra həmin təqvim ili ərzində *Fondla* bank çərçivə müqaviləsi bağlayarsa, həmin il üzrə bölüşdürülməmiş limitlər olduğu halda *Fond* həmin limitlər hesabına, bu Qaydanın 11.3-cü bəndinə uyğun olaraq, yeni müvəkkil banka limit ayırır. Bölüşdürülməmiş limit olmadığı halda müvəkkil banka limit növbəti təqvim ilində ayrılır.

*11.11. Çərçivə müqaviləsi ləğv edildikdə, həmin bank üzrə ayrılmış limitin istifadə olunmamış hissəsi bu Qaydanın 11.7-ci bəndinə müvafiq olaraq digər müvəkkil banklar arasında bölüşdürülür.*[46]

11.12. Cari il üçün nəzərdə tutulmuş zəmanət limitindən tam istifadə edildikdə, müvəkkil bank həmin il ərzində zəmanət limitinin artırılması ilə bağlı *Fonda* müraciət edə bilər. Bu zaman əlavə limitin ayrılması və ondan istifadə bu Qaydanın 11-ci hissəsi ilə tənzimlənir.

## 12. Hesabatlılıq və monitorinq

12.1. *Fondun* zəmanəti əsasında icra edilən layihələr üzrə müvəkkil bankların *Fond* qarşısında hesabatlılığı və monitorinqlərin aparılması Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 29 noyabr tarixli 1691 nömrəli Fərmanı ilə təsdiq edilmiş "*Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunda* kredit reytinqi sisteminin və digər risk menecmenti alətlərinin tətbiqi Qaydası" ilə tənzimlənir.[47]

12.2. Müvəkkil bankla borcalan arasında bağlanan kredit müqaviləsində sahibkarlıq subyektinin *Fond* tərəfindən monitorinq keçirilməsi üçün zəruri şərait yaratmaq və tələb olunan bütün sənədləri və məlumatları təqdim etmək öhdəliyi nəzərdə tutulmalıdır.

## *13. Zəmanətə görə ödəniş edilmiş kredit üzrə daxil olan vəsaitlərin bölüşdürülməsi*[48]

*13.1. Zəmanətə görə ödəniş edilmiş kredit üzrə daxil olan vəsaitlər həmin kredit üzrə zəmanətin kreditə olan faiz nisbətinə müvafiq olaraq Fonda, bu vəsaitlərin qalan hissəsi isə müvəkkil banka ödənilir.*[49]

13.2. Bir borcalanın bir müvəkkil bankda *Fond* tərəfindən zəmanətə görə ödəniş edilmiş iki və daha çox krediti olduqda, həmin kreditlər üzrə sonradan daxil olan ödənişlər, ilk növbədə, zəmanətin kreditə nisbəti daha yüksək olan öhdəliklərə yönəldilir.

*13.3. Zəmanət verilmiş krediti olan borcalanın müvəkkil bankda bir neçə krediti olduqda, bu kreditlər üzrə daxil olan vəsaitlər aşağıdakı hallarda müvəkkil bank tərəfindən zəmanət verilmiş kredit üzrə ödənişlərin həyata keçirilməsinə yönəldilir:*[50]

*13.3.1. zəmanət verilmiş kredit gecikmədə olduqda həmin kredit gecikmədən çıxanadək;*

*13.3.2. zəmanət verilmiş kredit üzrə zəmanət ödənişi həyata keçirildikdə, həmin kredit tam ödənilənədək.*

~~13.4. *Fond* tərəfindən zəmanətə görə ödəniş edilmiş kredit üzrə daxil olan vəsaitləri müvəkkil bank, ilk növbədə, zəmanət verilmiş kredit üzrə əsas borcun silinməsinə yönəldir.~~ [51]

13.5. Bu Qaydanın 13.1 – *13.3-cü* bəndlərində qeyd olunan şərtlər borcalanla bağlanmış kredit müqavilələrində nəzərdə tutulmalıdır. [52]

13.6. Zəmanət üzrə ödənilmiş vəsaitin geri qaytarılması üçün borcalana və kredit üzrə təminat verən digər şəxslərə (girov (ipoteka) qoyana və s.) qarşı *Fondun* adından və onun xeyrinə tələb hüquqlarını müvəkkil bank həyata keçirir. *Fond* zəmanət üzrə ödəniş etdikdən sonra, müvəkkil bank və *Fond* arasında bağlanmış çərçivə müqaviləsinin şərtlərinə uyğun olaraq, kredit üzrə daxil olan ödənişlərin təmin edilməsi üzrə tələb hüquqlarını *Fondun* özü həyata keçirə bilər.

13.7. *Fondun* tələb hüquqlarının həyata keçirilməsi ilə bağlı yaranan xərclərin ödənilməsi və digər əlaqədar məsələlər müvəkkil bank və *Fond* arasında bağlanmış çərçivə müqaviləsi ilə tənzimlənir. [53]

## *14. Keçid müddəa*[54]

*Elektron sistem fəaliyyətə başlayanadək bu Qaydanın 5.4–5.8-ci və 8.6-cı bəndlərində və 5.2.1–5.2.4-cü və 10.6.1-ci yarımbəndlərində elektron sistem vasitəsilə edilməsi nəzərdə tutulmuş əməliyyatlar yazılı formada həyata keçirilməlidir.*

---

[1] 25 dekabr 2017-ci il tarixli **1762** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 27 dekabr 2017-ci il, № 287, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab, maddə 2330)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nın 1.1-ci, 1.2-ci, 8.4-cü və 12.1-ci bəndləri istisna olmaqla, mətn üzrə ismin müvafiq hallarında "**Cəmiyyət**" sözü ismin müvafiq hallarında "**Fond**" sözü ilə əvəz edilmişdir.

25 dekabr 2017-ci il tarixli **1762** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 27 dekabr 2017-ci il, № 287, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab, maddə 2330)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nın 5.1-ci, 5.4-cü, 6.2-ci, 6.3-cü, 6.4-cü, 11.2-ci, 11.7-ci və 11.9-cu (ikinci halda) bəndləri istisna olmaqla, mətn üzrə ismin müvafiq hallarında "**Müşahidə Şurası**" sözləri ismin müvafiq hallarında "**Himayəçilik Şurası**" sözləri ilə əvəz edilmişdir.

[2] 25 dekabr 2017-ci il tarixli **1762** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 27 dekabr 2017-ci il, № 287, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab, maddə 2330)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nın 1.1-ci bəndində "**Azərbaycan Respublikasının Kredit Zəmanət Fondu" Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra – Cəmiyyət)"** sözləri "**Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun (bundan sonra – Fond)"** sözləri ilə əvəz edilmişdir.

[3] 25 dekabr 2017-ci il tarixli **1762** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 27 dekabr 2017-ci il, № 287, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab, maddə 2330)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nın 1.2-ci bəndində (birinci halda) "**Cəmiyyət**" sözü "**Fond**" sözü ilə əvəz edilmişdir.

25 dekabr 2017-ci il tarixli **1762** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 27 dekabr 2017-ci il, № 287, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab, maddə 2330)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nın 1.2-ci, 8.4-cü və 12.1-ci bəndlərində ismin müvafiq hallarında "**Azərbaycan Respublikasının Kredit Zəmanət Fondu" Açıq Səhmdar Cəmiyyəti**" sözləri ismin müvafiq hallarında **"Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu**" sözləri ilə əvəz edilmişdir.

[4] 21 may 2019-cu il tarixli **705** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 5, maddə 857)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nın 2.1.4-cü yarımbəndində "**(iri, orta və kiçik sahibkar meyarları "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 714-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 28 avqust tarixli 955 nömrəli Fərmanının 1.1.7-ci yarımbəndinə uyğun olaraq müəyyən edilir)**" sözləri "**(iri, orta, kiçik və mikro sahibkarların meyarları "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müəyyən edilir)**" sözləri ilə əvəz edilmişdir.

[5] 2 may 2018-ci il tarixli **33** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nın 2.1.6-cı yarımbəndi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:
~~2.1.6. faiz subsidiyası – sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı sahibkarların müvəkkil banklardan manatla aldıqları və bu Qaydaya uyğun olaraq *Fondun* zəmanət verdiyi kreditlər üzrə hesablanmış faizlərin bir hissəsinin ödənilməsi üçün dövlətin əvəzsiz verdiyi maliyyə vəsaiti;~~

[6] 4 oktyabr 2018-ci il tarixli **291** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq"**

**qəzeti, 5 oktyabr 2018-ci il, № 223, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 10, maddə 1991)** ilə “Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası”nın 2.1.14-cü yarımbəndi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:
~~2.1.14. kredit reyestri – hüquqi və fiziki şəxslərin öhdəliklərinin icrası barədə mərkəzləşdirilmiş kredit reyestrində və (və ya) kredit bürolarında saxlanılan məlumat bazası;~~

[7] 4 oktyabr 2018-ci il tarixli **291** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Xalq” qəzeti, 5 oktyabr 2018-ci il, № 223, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 10, maddə 1991)** ilə “Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası”nın 3.2.2-ci, 3.2.3-cü və 3.2.4-cü yarımbəndlərində “**reyestrinin məlumatına**” sözləri “**hesabatına**” sözü ilə əvəz edilmişdir.

[8] 2 may 2018-ci il tarixli **33** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə “Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası”nın 3.2.5-ci yarımbəndi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:
~~3.2.5. bank hesabı üzərində müvafiq sərəncam olduqda;~~

[9] 2 may 2018-ci il tarixli **33** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə “Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası”nın 4.1.2-ci yarımbəndi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:
~~4.1.2. bir borcalanın və ya bir-biri ilə əlaqədar borcalanlar qrupunun bütün müvəkkil banklar üzrə zəmanət verilən cəmi kreditlərinin məbləği 3 000 000 (üç milyon) manatdan çox olmamalı;~~

[10] 2 may 2018-ci il tarixli **33** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə “Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası”nın 4.2.1-ci yarımbəndində "**500 000 (beş yüz min)**" sözləri "**3 000 000 (üç milyon)**" sözləri ilə əvəz edilmişdir.

[11] 2 may 2018-ci il tarixli **33** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə “Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası”nın 4.2.2-ci yarımbəndində "**750 000 (yeddi yüz əlli min)**" sözləri "**6 000 000 (altı milyon)**" sözləri ilə əvəz edilmişdir.

[12] 25 dekabr 2017-ci il tarixli **1762** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 27 dekabr 2017-ci il, № 287, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 12, I kitab, maddə 2330)** ilə “Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası”nın 5.1-ci, 5.4-cü, 6.2-ci, 6.3-cü, 6.4-cü, 11.2-ci, 11.7-ci və 11.9-cu (ikinci halda) bəndlərində ismin müvafiq hallarında “**Müşahidə Şurası**” sözləri ismin müvafiq hallarında “**İdarə Heyəti**” sözləri ilə əvəz edilmişdir.

[13] 2 may 2018-ci il tarixli **33** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə “Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası”nın 5.1.1-ci

yarımbəndindən "**bankın faiz subsidiyası həcmində ödənişləri həmin borcalana ödəmək və ya**" sözləri çıxarılmışdır.

[14] 2 may 2018-ci il tarixli 33 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nın 5.1.2-ci yarımbəndi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~5.1.2. çərçivə müqaviləsinə xitam veriləcəyi təqdirdə, zəmanət üzrə öhdəliyi icra edilmiş borcalana qarşı tələb hüququnu *Fondun* əldə etməsi.~~

[15] 2 may 2018-ci il tarixli 33 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nın 5.2.1-ci yarımbəndində "**borcalan**" sözündən sonra "**zəmanət tələb olunan**" sözləri əlavə edilmişdir, "**yazılı**" sözü "**Elektron hökumət" portalında olan "Elektron ipoteka və kredit zəmanət" sistemi (bundan sonra – elektron sistem) vasitəsilə**" sözləri ilə əvəz edilmişdir.

[16] 2 may 2018-ci il tarixli 33 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nın 5.2.2-ci yarımbəndinə yeni məzmunda ikinci cümlə əlavə edilmişdir.

[17] 2 may 2018-ci il tarixli 33 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nın 5.2.3-cü yarımbəndində və 5.5-ci bəndində "**yazılı**" sözü "**elektron sistem vasitəsilə**" sözləri ilə əvəz edilmişdir.

[18] 2 may 2018-ci il tarixli 33 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nın 5.2.4-cü yarımbəndi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~5.2.4. müvəkkil bank 200 000 (iki yüz min) manat məbləğindən yuxarı olan zəmanət üçün müraciət etdikdə, aşağıdakı sənədlərin surətini *Fonda* təqdim edir:~~

[19] 4 oktyabr 2018-ci il tarixli **291** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 5 oktyabr 2018-ci il, № 223, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 10, maddə 1991)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nın 5.2.4-cü yarımbəndin 3-cü abzasında "**reyestrindən çıxarış**" sözləri "**hesabatı**" sözü ilə, 7-ci abzasında "**reyestrindən çıxarışlar**" sözləri "**hesabatları**" sözü ilə əvəz edilmişdir.

[20] 2 may 2018-ci il tarixli 33 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nın 5.2.4-cü yarımbəndin on üçüncü abzasının sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilmişdir və 5.2.5-ci yarımbənd ləğv edilmişdir.

[21] 2 may 2018-ci il tarixli 33 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nın 5.3-cü bəndində "**səlahiyyətli orqanı**" sözləri "**İdarə Heyəti**" sözləri ilə əvəz edilmişdir.

[22] 2 may 2018-ci il tarixli 33 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nın 5.4-cü yarımbəndi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~5.4. *Fondun İdarə Heyətinin* müəyyən etdiyi orqan 200 000 (iki yüz min) manat və ondan aşağı məbləğdə olan zəmanətin verilməsi üzrə 3 (üç) iş günü, 200 000 (iki yüz min) manatdan yuxarı olan məbləğdə zəmanətin verilməsi üzrə 10 (on) iş günü müddətində qərar qəbul edir.~~

[23] 2 may 2018-ci il tarixli 33 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nın 5.6-cı bəndində ikinci halda "**və**" sözü "**və ya**" sözləri ilə, "**yazılı**" sözü "**elektron sistem vasitəsilə**" sözləri ilə əvəz edilmişdir.

[24] 2 may 2018-ci il tarixli 33 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nın 5.7-ci bəndin birinci və ikinci cümlələri yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~5.7. *Fondun* qərarı müsbət olduqda, 3 (üç) iş günü müddətində müvəkkil banka zəmanətlə bağlı yazılı məlumat təqdim edilir. Zəmanət müvəkkil bank və müştəri arasında kredit müqaviləsi imzalandığı tarixdən qüvvəyə minir.~~

[25] 2 may 2018-ci il tarixli 33 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nın 5.8-ci bəndinə "**təqdim edilir**" sözlərindən sonra "**və elektron sistemdə yerləşdirilir**" sözləri əlavə edilmişdir.

[26] 2 may 2018-ci il tarixli 33 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nın 8.2-ci bəndi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~8.2. Zəmanət məbləği 200 000 (iki yüz min) manat və ondan aşağı olan hər bir müraciət üçün müvəkkil bank tərəfindən 25 (iyirmi beş) manat, 200 000 (iki yüz min) manatdan yuxarı olan hər bir müraciət üçün 50 (əlli) manat xidmət haqqı ödənilir.~~

[27] 2 may 2018-ci il tarixli 33 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nın 8.5-ci bəndi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~8.5. Birdəfəlik komissiya zəmanətin qüvvəyə mindiyi tarixə olan məbləği üzrə hesablanır. İllik komissiya isə zəmanətin qüvvədə olduğu müddətdə gündəlik əsasda zəmanətin qalıq məbləğinə hesablanır.~~

[28] 2 may 2018-ci il tarixli 33 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nın 8.6-cı bəndin birinci cümləsi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~8.6. Müvəkkil bank birdəfəlik və illik komissiya, habelə xidmət haqqı barədə hər rüb bitdikdən sonra növbəti 5 (beş) iş günü müddətində *Fonda* hesabat təqdim edir.~~

[29] 2 may 2018-ci il tarixli 33 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nın 8.7-ci bəndi ləğv edilmişdir.

[30] 2 may 2018-ci il tarixli 33 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nın 9.5-ci bəndi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~9.5. *Fond,* bu Qaydanın 9-cu və 10-cu hissələrində göstərilənləri nəzərə almaqla, tələbin daxil olduğu tarixdən etibarən 5 (beş) iş günündən gec olmayaraq zəmanət üzrə ödənişi müvəkkil bankın hesabına köçürür. Zəmanətin ödənilməsi ilə bağlı qərarı *Fondun* səlahiyyətli orqanı verir.~~

[31] 2 may 2018-ci il tarixli 33 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nın 9.6-cı bəndinə yeni məzmunda birinci cümlə əlavə edilmişdir.

[32] 2 may 2018-ci il tarixli 33 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nın 9.9-cu bəndində "**çərçivə müqaviləsi**" sözlərindən sonra "**qanunla müəyyən edilmiş hallarda**" sözləri əlavə edilmişdir və bənddən "**müvəkkil banka**" sözləri çıxarılmışdır.

[33] 2 may 2018-ci il tarixli 33 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nın 9.10-cu bəndində "**tələb hüququ müvəkkil banka keçir**" sözləri "**zəmanət verilmiş kredit üzrə tələb hüququnu müvəkkil banka geri qaytarır**" sözləri ilə əvəz edilmişdir.

[34] 2 may 2018-ci il tarixli 33 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nın 10.1-ci və 10.2-ci bəndlərində "**yığımlar**" sözü "**Fonda daxil olan vəsaitlər**" sözləri ilə əvəz edilmişdir.

[35] 2 may 2018-ci il tarixli 33 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nın 10.5-ci bəndi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~10.5. Müvəkkil banka yeni zəmanətin verilməsi bu Qaydanın 10.3.1 – 10.3.4-cü yarımbəndlərində nəzərdə tutulmuş hallar aradan qalxdıqda yenidən bərpa olunur.~~

[36] 2 may 2018-ci il tarixli 33 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nın 10.6.1-

ci yarımbəndin birinci cümləsi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~10.6.1. müvəkkil bankın həmin kredit üzrə zəmanətin ləğv edilməsi barədə yazılı müraciəti olduqda.~~

[37] 2 may 2018-ci il tarixli 33 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nın 10.6.3-cü yarımbəndində "**şərtləri**" sözündən sonra "**Fondun müəyyən etdiyi formaya uyğun olmadıqda və ya**" sözləri əlavə edilmişdir.

[38] 2 may 2018-ci il tarixli 33 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nın 10.6.4-cü yarımbəndinə "**müvəkkil bank**" sözlərindən sonra "**kredit müqaviləsinə uyğun olaraq**" sözləri əlavə edilmişdir.

[39] 2 may 2018-ci il tarixli 33 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nın 10.6.5-ci yarımbəndində "**aşkarlandıqda**" sözü "**və ya zəmanət verilmiş kreditin təyinatı üzrə istifadə edilməməsinə şərait yaratdığı aşkarlandıqda və bu, məhkəmə qərarı ilə təsdiq edildikdə**" sözləri ilə əvəz edilmişdir.

[40] 2 may 2018-ci il tarixli 33 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nın 10.7-ci bəndi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~10.7. Aşağıdakı hallarda müvəkkil bankla bağlanmış çərçivə müqaviləsi ləğv edilir:~~

~~10.7.1. müvəkkil bank bu barədə yazılı müraciət etdikdə;~~

~~10.7.2. bu Qaydanın 12-ci hissəsində nəzərdə tutulmuş hesabatlar müvəkkil bank tərəfindən ardıcıl olaraq 2 (iki) dəfə *Fonda* təqdim edilmədikdə;~~

~~10.7.3. ödəmə vaxtı çatmış xidmət haqları və komissiyaların ödənişi 1 (bir) aydan çox gecikdirildikdə.~~

[41] 2 may 2018-ci il tarixli 33 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nın 10.9-cu bəndindən "**rüblük əsaslarla**" sözləri çıxarılmışdır.

[42] 2 may 2018-ci il tarixli 33 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nın 10.10-cu bəndi ləğv edilmişdir.

[43] 2 may 2018-ci il tarixli 33 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nın 11.1-ci bəndi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~11.1. *Fondun Himayəçilik Şurası, Fondun* kapitalının miqdarını və qəbul edə biləcəyi riskin yuxarı həddini nəzərə almaqla, hər təqvim ili müvəkkil banklar üzrə zəmanətlərin qalıq məbləğinin maksimum limitini (bundan sonra – limit) müəyyən edir.~~

[44] 2 may 2018-ci il tarixli 33 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nın 11.2-ci bəndində "**sifarişlərini**" sözü "**müraciətlərini**" sözü ilə əvəz edilmişdir.

[45] 2 may 2018-ci il tarixli 33 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nın 11.3-cü bəndi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~11.3. Bir müvəkkil bank üzrə limit *Fondun Himayəçilik Şurası* tərəfindən aşağıdakılar nəzərə alınmaqla təsdiq olunmuş daxili təsnifləşdirmə modelinə əsasən müəyyən edilir:~~

[46] 2 may 2018-ci il tarixli 33 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nın 11.11-ci bəndi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~11.11. *Fond* bu Qaydaya müvafiq olaraq çərçivə müqaviləsini ləğv etdikdə həmin bank üzrə ayrılmış limit bu Qaydanın 11.7-ci bəndinə müvafiq olaraq digər müvəkkil banklar arasında bölüşdürülür.~~

[47] 2 may 2018-ci il tarixli 33 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nın 12.1-ci bəndində "**Cəmiyyətin**" sözü "**Fondun**" sözü ilə, "**Cəmiyyət**" sözü isə "**Fond**" sözü ilə əvəz edilmişdir.

[48] 2 may 2018-ci il tarixli 33 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nın 13-cü hissənin adı yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~**13. Zəmanətə görə ödəniş edilmiş kreditlər üzrə yığım və tələb hüquqlarının bölüşdürülməsi**~~

[49] 2 may 2018-ci il tarixli 33 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nın 13.1-ci bəndi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~13.1. Müvəkkil bank zəmanətə görə ödəniş edilmiş kreditlər üzrə daxil olan vəsaiti zəmanətin kreditə nisbətinə müvafiq olaraq *Fonda* köçürməlidir. Zəmanətə görə ödəniş edilmiş krediti olan borcalanın müvəkkil bankda bir neçə krediti olduqda, kreditlər üzrə daxil olan vəsaitlər, ilk növbədə, borcalanın zəmanətə görə ödəniş edilmiş kreditinə, həmin kredit tam ödənilənədək yönəldilir.~~

[50] 2 may 2018-ci il tarixli 33 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nın 13.3-cü bəndi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~13.3. Müvəkkil bankda bir neçə krediti olan borcalanın zəmanət verilmiş krediti gecikmədə olduqda, müvəkkil bank kreditlər üzrə daxil olan vəsaitləri zəmanət verilmiş kredit gecikmədən çıxanadək həmin kreditin ödənilməsinə yönəldir.~~

[51] 2 may 2018-ci il tarixli **33** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nın 13.4-cü bəndi ləğv edilmişdir.

[52] 2 may 2018-ci il tarixli **33** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nın 13.5-ci bəndində "**13.4-cü**" sözləri "**13.3-cü**" sözləri ilə əvəz edilmişdir.

[53] 2 may 2018-ci il tarixli **33** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"nın 13.7-ci bəndində "**Müvəkkil bank tərəfindən**" sözləri "**Fondun**" sözü ilə əvəz edilmişdir.

[54] 2 may 2018-ci il tarixli **33** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 3 may 2018-ci il, № 99, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 901)** ilə "Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası"na yeni məzmunda 14-cü hissə əlavə edilmişdir.